# Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası

QƏRAR № 12

Bakı şəhəri, 28 oktyabr 2015-ci il

## Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"na və Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2015-ci il 21 iyul tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dərman vasitələrinin qiymətlərinin hesablanması üsullarına dair Təlimat"a uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **qərara alır:**

1. Bu qərara Əlavə 1-də göstərilən siyahı üzrə dərman vasitələrinin aptek təşkilatına topdan və aptek təşkilatı tərəfindən pərakəndə satış qiymətləri və onların qüvvəyə minmə tarixləri təsdiq edilsin.

2. Müəyyən edilsin ki, 2015-ci il 21 dekabr tarixindən etibarən bu qərara Əlavə 2-də göstərilən təsiredici maddələr üzrə (bu Əlavədə göstərilməyən digər kombinə olunmuş dərman vasitələri istisna olmaqla) qiymətləri təsdiq edilməyən dərman vasitələrinin satışı yalnız həmin dərmanların qiymətləri təsdiq edildikdən sonra həyata keçirilə bilər.

3. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyi bu qərardan irəli gələn məsələlərlə bağlı müvafiq tədbirlərin görülməsini təmin etsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Şahin MUSTAFAYEV,***
***Azərbaycan Respublikası***
***Tarif (qiymət) Şurasının sədri***